Tədbirdə təhsil nazirinin müavini Qulu Novruzov, Milli Məclisin deputatları Kamilə Əliyeva, Ceyhun Osmanlı, Sədaqət Vəliyeva, Jalə Əliyeva, Təhsil Nazirliyinin tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsinin müdiri Ağababa İbrahimov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Məmməd Bayramov, dərnək rəhbərləri və digər şəxslər iştirak ediblər.

Qeyd edək ki, Təhsil Nazirliyinin müvafiq əmri ilə keçirilmiş müsabiqə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü münasibətilə təşkil edilən silsilə tədbirlərdəndir. Müsabiqənin keçirilməsində əsas məqsəd istedadlı uşaq və gənclərin yaradıcılıq potensialının inkişafına təkan vermək, məktəblilərin yaradıcılıq dərnəklərinə marağını daha da artırmaq, uşaq yaradıcılıq mərkəzləri arasında təcrübə mübadiləsini təşkil etməkdən ibarətdir. Müsabiqə rayon (şəhər) və Respublika mərhələləri olmaqla 2 mərhələdə keçirilib.

Tədbiri giriş sözü ilə açan təhsil nazirinin müavini Qulu Novruzov şagirdlərin həyatında, düşüncəsində və əqli inkişafında məktəbdənkənar təhsilin xüsusi rolu olduğunu bildirib. Şagirdlərin bu müsabiqədə fəal iştirakını müsbət hal kimi qiymətləndirən nazir müavini qeyd edib ki, regionlardan olan məktəblilərin də yaradıcılıq mərkəzlərinə böyük maraq göstərməsi xüsusilə təqdirəlayiqdir.

Q.Novruzov müsabiqənin respublika mərhələsinə 400-ə yaxın əl işinin təqdim edildiyi və münsiflər heyəti tərəfindən seçim aparıldıqdan sonra 60 qalibin müəyyənləşdirildiyi haqda məlumat verib. Müsabiqə qaliblərini təbrik edən nazir müavini onlara gələcək işlərində uğurlar arzulayıb.

Digər çıxış edənlər müsabiqənin əhəmiyyətindən danışıb, belə tədbirlərin məktəblilərin hərtərəfli formalaşmasında xüsusi rolu olduğunu bildiriblər.

Müsabiqədə I, II və III yerləri tutan dərnək üzvləri Təhsil Nazirliyinin diplomu və hədiyyələrlə mükafatlandırılıblar.